**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№323/6** **10 noyabr 2020-ci il**

**“Auditor fəaliyyətində haqsız rəqabət hallarına qarşı mübarizəyə dair təlimat”ın layihəsinin müzakirəsi barədə**

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununa, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnaməyə, Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə iş Planının 1.2-ci “Auditor fəaliyyəti ilə əlaqədar təlimatlar, tövsiyələr, metodik göstəriş və şərhlərin hazırlanması” bəndinə dair tərtib edilmiş plan-proqramın 1-ci “Haqsız rəqabət hallarına qarşı mübarizəyə dair təlimatın hazırlanması” bəndinin icrası ilə əlaqədar hazırlanmış və Auditorlar Palatası Şurasının 2020-ci il 25 sentyabr tarixli iclasında müzakirə edilərək bir ay müddətində auditorların və digər maraqlı tərəflərin müzakirəsinə verilmiş, rəy və təkliflər nəzərə alınmaqla yenidən hazırlanmış “Auditor fəaliyyətində haqsız rəqabət hallarına qarşı mübarizəyə dair təlimat”ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor fəaliyyətində haqsız rəqabət hallarına qarşı mübarizəyə dair təlimat” bəyənilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2013-cü il 19 dekabr tarixli 248/3 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidmətində haqsız rəqabət hallarının və maraqlar toqquşmasının qarşısının alınmasına dair təlimat” qüvvədən düşmüş hesab edilsin.
3. Aparatın rəhbəri Q.Bayramova tapşırılsın ki, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin tələbləri əsasında “auditor fəaliyyətində haqsız rəqabət hallarına qarşı mübarizəyə dair metodik şərhin hazırlanması”na dair bəndin Palatanın 2021-ci il üzrə iş planına daxil edilməsi təmin edilsin.
4. Auditorlar Palatasının struktur bölmələrinin, Palatanın Şurası yanında müvafiq komitələrin və Palatanın üzvü olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, “Auditor fəaliyyətində haqsız rəqabət hallarına qarşı mübarizəyə dair təlimat”ın tələblərindən irəli gələn vəzifələrin icrasını təmin etsinlər.
5. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (Vasif Cavadov) tapşırılsın ki, bir həftə müddətində “Auditor fəaliyyətində haqsız rəqabət hallarına qarşı mübarizəyə dair təlimat”ın auditor təşkilatlarına və sərbəst auditorlara çatdırılması təmin edilsin.
6. Bu qərarın və təlimatın mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**